***Bəhmən Göyçəli***
***Dağlar***

Mahalım, vətənim, elim, obamsan,
Çəmənli mənzilim, yurdum, a dağlar!
Həkimim, loğmanım, dərman, davamsan,
Xəstəydim, şəfannan durdum, a dağlar!

Ellər gəlib yurddan-yurda köçəndə,
Dərə, təpə daşqın çaydan keçəndə,
Sərin bulağından əylib içəndə,
Qalmadı ürəkdə dərdim, a dağlar!

Təbiət veribdi işrəti sana,
Al-yaşıl bəzəyi, şöhrəti sana,
Baharın fəslində ləzzəti sana,
Səni gəzib, səfa sürdüm, a dağlar!

Kəpəzi, Murovu, Qıçyığı gəzdim,
Qoşqarı, Murğuzu, Buçuğu gəzdim,
Dolandım, yüksəyi, alçağı gəzdim,
Bəhmənəm, hər yanın gördüm, a dağlar!

***Göyçəli B. Dağlar : qoşma // Azərbaycan aşıqları. – Bakı: Çaşıoğlu, 2004. – S. 329.***